# Qiymətləndirmə üsullarının tətbiqi

**Könül Əliyeva**
*Sumqayıt Dövlət Universitetinin assistenti,*
*riyaziyyat üzrə fəlsəfə doktoru*
**Ülviyyə Əliyeva**
*Sumqayıt Dövlət Universitetinin baş müəllimi*
**E-mail:** abdullayev_ayxan@list.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. X.S. Həsənova,
r.ü.f.d., dos., M.N. Heydərova

**Açar sözlər:** tədris prosesi, təlim prosesi, qiymətləndirmə, standart
**Ключевые слова:** процесс учёбы, процесс обучения, оценивание, стандарт
**Key words:** process of study, learning process, evaluation, standard

Hazırda ümumi təhsil sahəsində aparılan islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla təhsilin keyfiyyətinin yüksəltmək, onun inkişafını təmin etməkdir. Bununla əlaqədar təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığına və qiymətləndirmə sistemlərinə yenidən baxılması zərurəti vardır.

Məlumdur ki, hər hansı bir kəşf, yenilik mütləq qiymətləndirmə əsasında özünü doğruldur. "Gündəlik ehtiyaclara cavab verirmi?", "Tələbatı ödəyirmi?" və s. bu kimi sualların süzgəcindən – qiymətləndirilmə prosesindən keçdikdən sonra məhsulun tətbiqi məqbul hesab olunur. Qiymətləndirmə keyfiyyətin yüksəldilməsi və inkişafına xidmət edən bir proses olmalıdır.

Qiymətləndirmə (dəyərləndirmə) geniş anlayış olub istənilən sahənin və ümumilikdə cəmiyyətin inkişafının bütün sahələrində bu və ya digər şəkildə istifadə olunur. Məsələn cəmiyyətdə müəyyən hadisəyə münasibəti öyrənmək üçün sosioloji sorğular keçirilir, nəticələr ümumiləşdirilir və hadisə qiymətləndirilir. Təbabətdə xəstənin diaqnozunu və müalicəsini təyin etmək üçün çoxlu ölçmələr aparılır (indikatorların qiyməti müəyyən edilir), onlara əsasən xəstənin vəziyyəti qiymətləndirilir, diaqnoz qoyulur və diaqnoza uyğun gələn müalicə üsulları seçilərək xəstə müalicə olunur. Yaxud psixologiya sahəsində həyata keçirilən yoxlamalar, monitorinqlər hər hansı bir xüsusiyyəti, cəhəti, xarakteri ortaya çıxarır. Bu yoxlamalar sayəsində mütləq olaraq prosesin qiymətləndirilməsi həyata keçirilir. Belə misallardan çoxlu sayda gətirmək olar.

Qiymətləndirmənin məqsədi nədir?

Əsas məqsəd tədrisin və təlimin keyfiyyətinin yaxşılaşdırılması olmaldıır. Tədris prosesinin effektiv planlaşdırılması, təkcə bilik və bacarıqları deyil, həm də şagirdin fəaliyyəti, inkişafı qiymətləndirmə prosesinin əsasını təşkil etməlidir. Dərsin gedişinin interaktiv yolla təşkili dərsdə faydalı və etibarlı əks-əlaqəni təşkil edir, öyrənilənlərə özünü təkmilləşdirməkdə kömək edir, formalaşdırıcı funksiya daşıyır. Təlim prosesi zamanı bu cür qiymətləndirmə şagirdin özünə və ictimaiyyətə şagirdin səviyyəsi və inkişafı barədə müntəzəm məlumat verməyə imkan verir. Təhsilin davamlılığı və öyrənməyə maraq və motivasiya məhz belə bir şəraitdən yaranır.

Müasir qiymətləndirmənin təlim prosesinin tərkib hissəsini təşkil etməsi və onun haqqında məlumat mənbəyi olması, təlimin səmərəliliyinin müəyyən etməsi, dəqiq

müəyyənləşdirilmiş standartlara və meyarlara əsaslanması, eləcə də məsələlərin mərkəzində şagirdin dayanması onun fəlsəfi əsasını təşkil edir.

Müasir qiymətləndirmənin standartlar əsasında qurulması və onun daha obyektiv və real köklərə dayandığını göstərir. Belə ki, müəllim və şagirdlər onların qarşısına qoyulan tələbləri öncədən daha aydın görür və yollarını müəyyənləşdirirlər.

Çoxillik standart yaratmaq təcrübəsi olan ölkələrdə artıq standartların tətbiqi ilə bağlı böyük təcrübə məktəbi formalaşmışdır. Bu ölkələrin pedaqoqları sadəcə standartlardan yox, güclü standartlardan danışır və aşağıdakıları ön plana çəkirlər:

1. Bütün standartlar eyni dərəcədə əhəmiyyətli deyil.
2. Standart hazırlanarkən "bilmək yaxşı olardı" yox, "bunu bilmək vacibdir" prinsipi ilə hərəkət etmək lazımdır.
3. Şagirdə gələcək həyatında lazım olan, tədrisin nəzərdə tutulan və qiymətləndirilməsi planlaşdırılan bilik və bacarıqlar standartlarda interqrativ şəkildə əks olunmalıdır.

Amerikalı alim H.Yakobs göstərir ki, öyrədilməsi arzu edilə şeylərin arasından öyrədilmə imkan olanların seçilməsi kurikulum yaradanların əsas vəzifəsidir. Vaxt məhdudiyyəti olduğu üçün hər şey öyrətmək mümkün deyil. Kurikulumu yaradanlar məzmunu müəyyən edərkən ən vacib olanları seçməlidirlər.

Nəticəyönlü kurikulumun hazırlanması və tətbiqi sahəsində ilk addımlarını atan ölkəmizdə standartların cəmiyyətin tələblərinə, şagirdlərin yaş səviyyəsinə və digər aspektlərə hansı səviyyədə uyğun olması haqqında yalnız şagird nailiyyətlərinin qiymətləndirilməsinin nəticələri əsasında fikir söyləmək olar. Qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kuriklumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etmək üçün etibarlı mənbə rolunu oynayır.

Eyni zamanda qiymətləndirmə şagirdlər haqqında məlumat toplamağı, onların zəif və güclü tərəflərin müəyyən etməyə imkan verir ki, bu da müəllimə dərsdə istifadə edəcəyi təlim üsullarını standartlara və şagirdlərin səviyyəsinə uyğun müəyyənləşdirməyə kömək edir.

Beləliklə, qiymətləndirmə müəllimin öyrətmə və şagirdin öyrənmə və təhsilin idarə olunması prosesində əhəmiyyətli rola malikdir.

Bəzi ədəbiyyatlarda şagird nailiyyətlərinin qiymətləndirilməsinin dövrü şəklində bütün prosesləri necə əlaqələndirildiyini aşağıdakı sxemlə göstərilir:



Sxemdə göründüyü kimi təlim prosesi fənlər üzrə müəyyən edilmiş təlim nəticələr (standartlar) əsasında qurulur. Şagirdlərin nəzərdə tutulan təlim nəticələrini necə yiyələnməsi qiymətləndirilir və nəticələr təhlil olunur. Bu təhlil əsasında nəticələri, təlim və qiymətləndirmə üsullarının dəyişdirilməsi və ya təkmilləşdirilməsi haqqında qərar çıxarılır.

Qiymətləndirmə üzrə amerikalı alim D.Sparks qeyd edir ki, "əsas məsələ" qiymətləndirməni şagirdin həvəsləndirilməsi üzərində qurulmalıdır. Bir vaxtlar qiymətləndirmə sistemi şagirdləri mükafatlandırmaq və cəzalandırmaq üçün bir vasitə olaraq yaradılmışdır. Bu səbəbdən ilk nəticələri uğursuz olan bir çox şagirdlər öz vəziyyəti ilə barışır və çalışmağa son qoyurdu. Şagirdlərin qiymətləndirməyə cəlb edildiyi eyni sistemdə isə onlar özlərini prosesin səlahiyyətli iştirakçısı kimi görürlər.

"Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nı da ölkəmizdə məktəb daxili qiymətləndirməni həyata keçirmək üçün istiqamətlər müəyyən edilmişdir. Qiymətləndirmə diaqnostik, formativ və summativ olaraq formal və qeyri-formal şəkildə həyata keçiriləcəkdir.

Formativ qiymətləndirmə təlim prosesində şagirdin fəaliyyətini izləmək məqsədi ilə müəllimin müntəzəm olaraq apardığı monitorinqlərdi. Bu monitorinqlər vasitəsilə şagirdin zəif və güclü tərəfləri aşkar edilir, ehtiyacları öyrənilir, uğur qazana bilməməsi səbəbləri müəyyən olunur və bunun üçün zəruri tədbirlər həyata keçirilir.

Diaqnostik qiymətləndirmə, əsasən, müvafiq təlim istiqamətlərinin müəyyənləşdirməklə şagirdin ilkin bilik və bacarıqlarını ölçür və bu səbəbdən kursun və bölmənin əvvəlinə keçirilir. Eyni zamanda metodik ədəbiyyatda formativ qiymətləndirmə zamanı üzə çıxan problemin kökünü müəyyənləşdirmək (diaqnoz qoymaq) üçün və diaqnostik qiymətləndirmənin keçirilməsi təcrübəsi haqqında çoxlu fikirlərə rast gəlirik. Şagirdlərin nailiyyətlərini izləyərkən yeri gəldikcə bir nəfərlə ayrılıqda, kiçik bir şagird qrupu ilə və ya bütün sinflə diaqnostik qiymətləndirmə aparılır.

Diaqnostik qiymətləndirmənin ən geniş yayılmış forması özünü qiymətləndirmədir. Şagird bölmənin əvvəlində müəllimin qoyduğu meyarlar üzrə mümkün bal çərçivəsində özünü qiymətləndirir. Sözsüz ki, eyni zamanda müəllim də həmin meyarlar üzrə şagirdi qiymətləndirir və üst-üstə düşməyən fikirlər birlikdə təhlil edilir.

Summativ qiymətləndirmə (yekun) məktəblər (müəllimlər və məktəb rəhbərliyi) və ya yuxarı orqanlar tərəfindən (rayon və şəhər təhsil şöbələri, nazirlik) şagirdlərin son nəticəsini öyrənmək məqsədi ilə aparılır.

Qiymətləndirmə üsulları şagirdlərin öyrənməsi haqqında məlumatları toplamaq üçün istifadə olunan prosedurlardır. Qiymətləndirmə vasitələri isə şagirdlərin öyrənməsi haqqında məlumatları toplamaq üçün istifadə olunan alətdir. Daha dəqiq desək əgər müşahidə aparmaq qiymətləndirmə üsuludursa onu həyata keçirmək üçün müəllimin istifadə etdiyi müşahidə vərəqi qiymətləndirmə vasitəsidir. Summativ qiymətləndirmənin nəticələri rəsmi xarakter daşıdığı üçün onun formal qiymətləndirmə adlandırılar. Summativ qiymətləndirmə aparmaq üçün ən çox istifadə olunan vasitə testlərdir.

Formativ qiymətləndirmə isə məlumatların toplanması prosesi olub, nəticələrin rəsmi qeydiyyatı aparılmadığı üçün qeyri-formal qiymətləndirmə adlandırılır.

Formativ qiymətləndirmə zamanı geniş istifadə olunan üsullara aşağıdakıları misal göstərmək olar: müstəqil oxu, esse, riyazi problemin həlli, planlaşdırma, rol oyunları, hesabat yazmaq, informasiyanın təhlili və s. Yaradıcı müəllim bu siyahını xeyli artıra və zənginləşdirə bilər.

Bu üsullardan istifadə etmək şagirdlərə verilən eyni adlı tapşırıqların qiymətləndirilməsi

deməkdir. Bu tapşırıqları qiymətləndirmək üçün rüblüklər, qiymətləndirmə meyarları cədvəli, müşahidə vərəqələri, özünü qiymətləndirmə və cütlüklərin qiymətləndirilməsi vərəqləri və s. vasitələrdən istifadə etmək olar.

Qiymətləndirmə üsullarından yerində və lazımınca istifadə etmək üçün nümunələri və tapşırıqları müəllim özü yarada və digər ölkələrin təcrübəsini yerli xüsusiyyətlərlə uyğunlaşdırmaqla istifadə edə bilər. Bu yenə də müəllim peşəkarlığından asılıdır. Müəllimlərin peşəkarlığı isə onların öz üzərində işləməsi, daim öyrənmək və inkişaf etmək istəməsi ilə bağlıdır. Bu işdə müəllimin ixtisaslaşdırılmasında böyük rol oynayır. Müəllimlərin ixtisaslaşdırılması aparılan islahatların müvəffəqiyyətini təmin edən göstəricilərdən biridir. Amma bir şeyi də nəzərə almaq lazımdır ki, müəllimin ixtisaslaşması üçün dövlətin gördüyü tədbirlər işin bir hissəsidir. Əsas məsələ bu müəllimin bu dəyişikliyə nə dərəcədə hazır olması və onu qəbul etməsidir. Belə ki, müəllim ona edilən köməyə cavab olaraq qoyulan tələblərin reallaşması üçün böyük təhsil orqanlarına yardım etməlidir.

ABŞ-ın Kadrların İnkişafı üzrə Milli Şurasının icraedici direktoru, eyni zamanda qiymətləndirmə üzrə mütəxəssis D.Sparks hələ 1998-ci ildə bu məsələ ilə bağlı arzularını belə ifadə etmişdir: “Təsəvvür edək ki, gələcəkdə müəllimlər bir stol ətrafında oturaraq şagirdlərin işi, öyrənməsi haqqında danışaraq belə bir suala cavab axtarırlar; şagirdlərimizdən arzuladığımız nəticəni almaq üçün biz nəyi dəyişməliyik?”

Ümid edirik ki, ölkəmizdə müəllimlər məhz bu istiqamətdə düşünüb hərəkət edəcək və islahatın həyata keçirilməsinə öz töhfələrini verəcəkdir.

**Məqalənin aktuallığı**. Qiymətləndirmə (dəyərləndirmə) geniş anlayış olub istənilən sahənin və ümumilikdə cəmiyyətin inkişafının bütün sahələrində bu və ya digər şəkildə istifadə olunur.

**Məqalənin elmi yeniliyi**. Əsas məqsəd tədrisin və təlimin keyfiyyətinin yaxşılaşdırılması olmaldır. Tədris prosesinin effektiv planlaşdırılması, təkcə bilik və bacarıqları deyil, həm də şagirdin fəaliyyəti, inkişafı qiymətləndirmə prosesinin əsasını təşkil etməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Qiymətləndirmə üsullarından yerində və lazımınca istifadə etmək üçün nümunələri və tapşırıqları müəllim özü yarada və digər ölkələrin təcrübəsini yerli xüsusiyyətlərlə uyğunlaşdırmaqla istifadə edə bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. “Azərbaycan müəllimi” qəz., 2009, 6 fevral.

2. D.Sparks, Leading for Results: Transforming Teaching, Learning, and Relationships in Schools, 2006.

3. H.Jacobs, “Mapping the Big Picture: İntegrating Curriculum and Assessment K-12” ASCD, Alexandria, VA, 1997.

4. Nitko A.J., 2004; Educational assessment of children (4th ed.). Upper Saddle River, NJ: Pearson.

**К. Алиева, У. Алиева**

## Применение метода оценивания


## Резюме

В статье даётся подробная информация о правильном выборе методов и средств, используемых в процессе оценивания.

Методы и средства оценивания являются орудием и процедурами, которые используются для собирания информации об обучении школьников.


**K. Alıyeva, U. Alıyeva**

## Application of the estimation method


## Summary

The article provides detailed information on the correct choice of methods and tools used in the assessment process.

Methods and means of evaluation are tools and procedures that are used to collect information on the education of school children.


**Redaksiyaya daxil olub:** 10.10.2018